UOT 32:93/94

SABİR MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin professoru,
siyasi elmlər doktoru
ORCID ID: 0000-0001-9176-2569
sabir.rm@mail.ru

BEYNƏLXALQ JURNALİSTİKA PRİNSİPLƏRİNİN AZƏRBAYCAN MEDİASINA İMPLEMENTASİYASI

DOI: https://doi.org/10.36719/2708-065X/107/103-107

Məqalədə Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyası və bu prosesdə ölkələrarası əməkdaşlığın təşkili, onun forma və medodları hərtərəfli şəkildə araşdırılır. Müəllif qeyd edir ki, hazırda ölkələrarası əməkdaşlıq insan haqları və demokratik prinsiplərin aliliyi prinsipi əsasında qurulur. Azərbaycan bu sahədə qarşısında duran vəzifələri həll etmək üçün beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli əlaqələr müstəvisində geniş fəaliyyət göstərir. Ölkəmizin BMT, YUNESKO, Avropa Şurası və ATƏT-lə əməkdaşlığı müasir demokratik dəyərlərin daxili qanunvericiliyinə gətirilməsini və tətbiqini, eyni zamanda beynəlxalq ekspertlərin müxtəlif normativ-hüquqi sənədlərinin hazırlanmasında iştirakını, dünya təcrübəsinin mənimsənilməsini əsaslı şəkildə təmin edir.

Açar sözlər: media, beynəlxalq təşkilatlar, beynəlxalq informasiya münasibətləri, söz azadlığı, qanunvericilik.

Giriş. Müasir dövrdə ölkələr arasında qarşılıqlı əməkdaşlıq ilk növbədə insan haqlarının və demokratik dəyərlərin aliliyi əsasında qurulur. Bu prinsiplərdən çıxış edərək dövlətlər beynəlxalq təşkilatlar çərçivəsində birləşir, üzv ölkələri təmin edə biləcək ortaq meyarlar, dəyərlər və normalar müəyyənləşdirir, vahid hüquqi-normativ baza formalaşdırırlar. Beynəlxalq hüquqi prinsiplər ölkədaxili qanunvericiliyə əsasən milli-hüquqi implementasiya yolu ilə gətirilir. Bu mənada Azərbaycanın BMT, Avropa Şurası, ATƏT və digər beynəlxalq qurumlarla əməkdaşlığı mühüm əhəmiyyətə malikdir.

Hazırda Azərbaycan 250-dən artıq beynəlxalq müqaviləyə qoşulmuş, insan haqları, söz və ifadə azadlığı, media siyasəti sahəsində bütün aparıcı beynəlxalq mexanizmlərlə əməkdaşlıq etməkdədir [1, s.35]. Ölkəmiz beynəlxalq birlik qarşısında həm də müvafiq öhdəliklər götürmüşdür ki, bunlar qanunvericilik aktlarının unifikasiyasını və beynəlxalq hüquq normalarına uyğunlaşdırmasını nəzərdə tutur. Digər tərəfdən ölkəmiz informasiya azadlığına hörmətlə yanaşmaq, respublika əhalisinin fundamental azadlıqlardan bəhrələnməsini reallığa çevirmək, medianın və jurnalistlərin müstəqilliyini müdafiə etmək, mətbuat azadlığını məhdudlaşdıran inzibati tədbirlərə əl atmamaq, informasiya azadlığı sahəsində qanunvericiliyi təkmilləşdirmək, qərarların qəbulunda ictimaiyyətin iştirakını təmin etmək, korrupsiyaya qarşı qərarların qəbulu prosesində şəffaflığı artırmaq, dövlətin maliyyə vəsaitlərinin xərclənməsində hesabatlılığı gücləndirmək və digər öhdəliklərə imza atmış, bununla da aparıcı beynəlxalq təşkilatların, ilk növbədə BMT-nin, Avropa Şurası və ATƏT-in fəaliyyət orbitinə daxil olmuşdur.

Azərbaycan Respublikası dövlət müstəqilliyinə qovuşduqdan sonra ölkədə söz və ifadə azadlığı sahəsində keyfiyyətcə yeni dönəm başlamış, "KİV haqqında" (1999) yeni Qanun qəbul olunmuş, media sahəsində ciddi islahatlar aparılmışdır. "İnformasiya əldə etmək haqqında" Qanun bütün göstəricilərinə görə beynəlxalq normalara uyğundur və demokratik cəmiyyət quruculuğunda əhəmiyyətli hadisəyə çevrilmişdir. Bununla belə həmin normativ-hüquqi aktların tətbiqetmə prosedurlarında ciddi çatışmazlıqlar mövcud olmuşdur ki, bunlar tədricən aradan qaldırılmışdır. Qeyd etmək lazımdır ki, yeni "Media haqqında Qanun" 2022-ci ildən qüvvədədir və hazırda dövlət-media-cəmiyyət münasibətlərini tənzimləyir.

Azərbaycan mediasının qarşısında duran problemlərin müəyyən qismini "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" əsasında həll et-

mək mümkün olmuşdur. Konsepsiya həm də beynəlxalq demokratik media dəyərlərinin ölkənin KİV qanunvericiliyinə gətirilməsini, ölkəmizin BMT-nin müvafiq insan haqları, söz və ifadə azadlığı qurumlarına dərin inteqrasiyasını nəzərdə tutmuşdur.

Qeyd etmək lazımdır ki, söz və ifadə azadlığı sahəsində BMT-nin çoxşaxəli fəaliyyətini İnsan hüquqları üzrə Ali Komissarı institutu əlaqələndirir [2]. Təşkilat çərçivəsində dövlətlərin beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi dərəcəsini isə İnsan hüquqları üzrə Şura müəyyənləşdirir. 2006-cı ildə bu quruma seçilən ilk ölkələrdən biri Azərbaycan olmuşdur. Ölkəmiz Şuraya üzv seçilərkən insan haqlarının beynəlxalq səviyyədə təşviqi üçün müvafiq öhdəliklər götürmüşdür [3].

Böyük əhəmiyyətə malik məsələlərin içərisində Azərbaycanın İnsan hüquqları üzrə Şuranın "Universal Dövri İcmal" mexanizmi ilə əməkdaşlığı mühüm yer tutur. 2009-cu ildə Azərbaycan digər BMT ölkələri kimi "Universal Dövri İcmal" mexanizmindən növbəti dəfə keçmişdir. Qaydaya əsasən, Azərbaycan hökumətinə ölkədə insan hüquqlarının vəziyyətinə dair Şuraya təqdim etdiyi hesabat əsasında müvafiq tövsiyələr verilmişdir ki, həmin dövr üçün bunların sayı 32 olmuşdur [4].

Beynəlxalq hüquq əsasında söz və ifadə azadlığının qorunması vəzifəsi BMT-nin Düşüncə və İfadə azadlığı üzrə Xüsusi Məruzəçisi institutunun fəaliyyət dairəsinə daxil edilmişdir. BMT-nin Xüsusi Məruzəçisi 2007-ci ilin aprelində Azərbaycana səfər etmiş və ölkə mediasının durumu, jurnalistlərin fəaliyyəti üçün yaradılmış hüquqi məkan və mövcud vəziyyət hərtərəfli təhlil olunmuş, lazımi çıxarışlar edilmişdir.

Media sahəsində beynəlxalq əməkdaşlıq həm də dünya ölkələri kütləvi informasiya vasitələrinin qarşılıqlı əlaqəsini və məlumat mübadiləsini, xarici müxbirlərin fəaliyyət imkanlarını və bu sahədə olan hüquqi normaları əhatə edir. Azərbaycanın media qurumları bu prosesdə çoxtərəfli və ikitərəfli sazişlər əsasında və ya beynəlxalq informasiya birlikləri çərçivəsində fəal iştirak edirlər.

Regional və transmilli informasiya sahəsində fəaliyyət göstərən demokratik ölkələrin media vasitələri üçün örnək və nümunə kimi BMT və YUNESKO-nun nəşr etdiyi müxtəlif mətbuat orqanları, yayımladığı proqramlar və bütövlükdə media-kommunikasiya sistemi çıxış etmişdir. Mətbuat, radio, televiziya və İnternet vasitəsilə BMT öz mütərəqqi demokratik ideyalarını bütün dünyaya çatdırır. BMT-nin mərkəzi idarələrinin fəaliyyətini hərtərəfli işıqlandırmaq üçün gündəlik olaraq BMT-nin "Jurnal"ı nəşr olunur [5], sistemli şəkildə "BMT haqqında həqiqət", "Xronika" [6], "İnkişaf xəbərləri", "Sülh və təhlükəsizlik məsələləri" adlı bülletenlər çap edilir.

BMT-nin ixtisaslaşmış qurumu kimi YUNESKO-nun media-kommunikasiya fəaliyyətində dünya xalqlarının qarşılıqlı əməkdaşlığı nəticəsində yaranan ideya bolluğu, fikir müxtəlifliyi, mədəniyyətlərin zənginləşməsi və bəşəriyyətin inkişafına demokratik dəyərlərin təsiri əks olunmaqdadır. Hazırda YUNESKO-nun 200-dən arıq dövri mətbuat orqanı və 100-dən çox müxtəlif sərlövhəli bülletenləri nəşr etdirilir ki, bunların böyük əksəriyyəti yerli dillərdə yayımlanır və cəmiyyətin müxtəlif problemlərini əks etdirir [7, s.29]. BMT və YUNESKO-nun media-kommunikasiya imkanlarının geniş və əhatəli olması, bu sistemin fəaliyyət mexanizminin təhlili hər bir iştirakçı dövlət kimi Azərbaycan üçün də öz problemlərini qaldırmaq, tərəfdar toplamaq, əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

Ümumdünya təşkilatları olan BMT və YUNESKO-nun media siyasətinin əsas prinsipləri regional dövlətlərarası qurumların fəaliyyətində konkretləşdirilir və daha da genişləndirilir. BMT və onun ixtisaslaşdırılmış qurumlarından biri - YUNESKO ilə yanaşı Azərbaycanın da bağlı olduğu Avropa qitəsinin aparıcı təşkilatlarından olan Avropa Şurası və ATƏT-in media siyasəti və bu kontekstdə ölkəmizin KİV problemlərinin təhlil edilməsi ilk növbədə Azərbaycan diplomatiyasının xarici siyasət fəaliyyəti qarşısında duran problemlərin aktuallığı ilə bağlıdır.

Sənəd və materialların təhlili göstərir ki, Avropa Şurasının media prinsipləri, o cümlədən informasiya azadlığının genişləndirilməsi və təmin edilməsi, mütərəqqi ümumavropa hüquq normalarının işlənib hazırlanması və üzv dövlətlərin qanunvericiliyinə gətirilməsi, iştirakçı ölkələrin informasiya vasitələrinin keyfiyyətcə yeni məzmun daşıması bütövlükdə demokratik inkişafa dəstək olmuş və Azərbaycanda Qərb dəyərləri ilə səciyyələnən demokratik cəmiyyət quruculuğunda mühüm rol oynamışdır.

Azərbaycanda söz və ifadə azadlığının təmin olunmasında, informasiyanın sərbəst və maneəsiz yayımı hüququnun reallaşmasında dövlət başçısının senzuranın ləğv edilməsi haqqında fərmanının

xüsusi əhəmiyyəti olmuşdur. Ölkəmizin müasir dövlətlər birliyinə qovuşmasında, hüquqi dövlət quruculuğunda, ümumbəşəri norma və prinsiplərin yayılmasında Azərbaycanın əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmasının böyük rolu olmuşdur. Həmin sənədlərdə informasiya yayımına əngəl ola biləcək heç bir dövlət mexanizmini yaratmamaq fikri əks olunmuşdur. Azərbaycanda KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüş, 1998-ci ilin sonlarında ölkədə nəşr olunan qəzetlər əlavə dəyər vergisindən azad olunmuş, 2000-ci ildən etibarən xaricdən gətirilən qəzet kağızı gömrük rüsumundan azad edilmiş, qəzet və jurnallara uzunmüddətli və güzəştli kreditlərin verilməsinə şərait yaradılmış, 2002-ci ildə isə mətbu orqanların "Azərbaycan" dövlət nəşriyyatına olan borclarının ödənişi üç il müddətinə təxirə salınmaqla media layihələrinin maliyyələşdirilməsi üçün böyük məbləğdə vəsait ayrılmış, 2006-cı ildə ölkə başçısının göstərişi ilə qəzet və jurnalların "Azərbaycan" nəşriyyatına olan borcları dövlət büdcəsi hesabına silinmişdir. Həyata keçirilməkdə olan tədbirlərin başlıca vəzifəsi Azərbaycan mediasını müasir beynəlxalq dəyərlər səviyyəsinə yüksəltmək olmuşdur.

Tədricən Azərbaycan özünün media qanunvericiliyini beynəlxalq standartlara uyğunlaşdırmağa başlamışdır: media hüququ ilə bağlı əsas anlayışlar dəqiqləşdirilmiş, mətbuat orqanının təsis edilməsi qaydaları liberallaşdırılmış, redaksiyanın təşkili prinsipləri, jurnalistin hüquq və vəzifələri yenilənmişdir. Beynəlxalq təşkilatların təklifləri əsasında ölkənin KİV qanunvericiliyi daim təkmilləşdirilmə prosesindədir. Bu gün hər hansı qəzet və jurnalın təsis edilməsi üçün artıq dövlət orqanından icazə almaq tələb olunmur, media vasitəsinin fəaliyyətinin dayandırılması və jurnalistlərin akkreditə məsələsi daha da müasirləşmişdir. Hazırda söz və mətbuat azadlığı hüququna müdaxiləyə görə məsuliyyətə cəlbolunma da qanuniləşdirilmişdir.

Azərbaycanda jurnalistikanın inkişafına köklü şəkildə müsbət təsir edən proseslərdən biri də medianın özünütənzimləmə mexanizminin formalaşmaqda olmasıdır. Hazırda Mətbuat Şurası qismində beynəlxalq standartlara uyğun KİV-in özünütənzimləmə institutu ölkəmizə gətirilmişdir. Beynəlxalq təcrübəyə uyğun olaraq, jurnalist birlikləri və media nümayəndələri tərəfindən peşə davranış kodeksi hazırlanmış və qəbul olunmuş, bu sahədə ümumavropa media qurumları ilə sıx əməkdaşlıq mühiti yaradılmışdır. Müasir dövrdə Azərbaycan Mətbuat Şurasının fəaliyyəti güclənir, qərarları daha təsirli olur, məmur-jurnalist münasibətlərinin tənzimlənməsində bu qurum əsaslı vasitəyə çevrilir.

XX əsrin sonu – XXI əsrin əvvəllərində müasir regional təhlükəsizlik sistemində söz və ifadə azadlığının rolu, dövlətlərarası informasiya münasibətlərinin tənzimlənməsi başlıca ümumavropa qurumu kimi ATƏT-in fəaliyyəti ilə sıx bağlıdır. ATƏT-in uğurlu media siyasəti nəticəsində informasiya sahəsində beynəlxalq əməkdaşlığın məhz praktiki addımları, hökumət-vətəndaş münasibətlərinin əsas meyarları və baza prinsipləri bərqərar olmuşdur. Şəxslərin və qrupların mətbəə avadanlığını icarəyə götürmək və satın almaq hüququ tanınmış, iştirakçı dövlətlər arasında çap məhsullarının, dövri və qeyri-dövri nəşrlərin idxal-ixrac və yayım qaydaları razılaşdırılmışdır. Elmi-texniki məlumatların sərhədsiz yayımı, qarışıq tədqiqatların aparılması, müxtəlif növ informasiya texnologiyalarının birgə istehsalı, mütəxəssislərin geniş təcrübə mübadiləsinin təşkil olunması məhz ATƏT-in xidmətləridir.

ATƏT-in sənədlərində üzv dövlətlərdə xarici jurnalistlərin peşə fəaliyyətinə dair prinsiplər müəyyənləşdirilmiş, onlara viza vermək meyarları sadələşdirilmiş, daimi akkreditə olunmuş jurnalistlərin imkanları genişləndirilmiş, əcnəbi müxbirlərə azad şəkildə ölkənin həyatına dair məlumat toplamaq, sərbəst informasiya mənbələri seçmək, onlarla şəxsi təmas formasında əlaqə yaratmaq hüququ tanınmış, informasiya mənbələri sırasına rəsmi dövlət orqanları daxil edilmişdir. ATƏT çərçivəsində razılaşdırılmış prinsiplər əsasında bir çox ölkələrdə xarici müxbirlərin fəaliyyətini tənzimləyən hökumət qaydaları hazırlanmış və diplomatik nümayəndəliklərin mətbuat-informasiya fəaliyyətinə müvafiq şərait yaradılmışdır.

Beynəlxalq təşkilatların media siyasətinin reallaşdırılması, qəbul olunmuş prinsiplərin həyata keçməsi sahəsində ATƏT-in KİV azadlığı üzrə Nümayəndəsi institutu üzv ölkələrdə, o cümlədən Azərbaycanda geniş və təsirli fəaliyyət göstərmişdir. Onun ölkə mediasının fəaliyyətində mövcud olan problemlərin həllində və jurnalistlərin peşə borclarının yerinə yetirilməsində əlverişsiz şəraitin aradan qaldırılması istiqamətində uğurları böyükdür. Xüsusi Nümayəndə dövlət məmurları, media əməkdaşları və digər maraqlı tərəflərlə birgə dərin təhlillər aparmış, Azərbaycanda KİV-in inkişafına əlverişli şərait yaradılmışdır. Hazırda ölkənin bütün aparıcı dövlət qurumlarında mətbuat xidmətləri

təsis edilmiş, onların əsasnamələri işlənib hazırlanmış, nazirliklərin İnternet saytları təşkil olunmuşdur.

ATƏT Azərbaycanda media mühitini təhlil edərək "Article XIX" təşkilatı ilə birlikdə davamlı şəkildə ölkə qanunvericiliyininin ekspertizasını həyata keçirmiş, onun təkmilləşdirilməsi üçün çoxsaylı təkliflər irəli sürmüşdür. Mediaya dair qüvvədə olan qanunların və digər normativ-hüquqi aktların qəbul olunması və təkmilləşdirilməsində ATƏT-in rolu danılmazdır. ATƏT-in və digər beynəlxalq təşkilatların ekspertləri Azərbaycan media nümayəndələri ilə birlikdə müasir tələblərə cavab verən "Diffamasiya haqqında" qanun layihəsi hazırlayaraq Milli Məclisə təqdim etmişlər. Diffamasiya ilə əlaqədar demokratik qaydalar ona yönəlmişdir ki, bu məsələlər mülki və inzibati maddələr əsasında və ya medianın özünütənzimləmə mexanizmi vasitəsilə həll olunsun.

KİV-in fəaliyyətinə normal şəraitin yaradılması ilk növbədə onların maliyyə müstəqilliyinə nail olmağı və dövlət tərəfindən liberal yanaşmanı tələb edir. Bu baxımdan ATƏT-in Azərbaycanın hökumət dairələrinə dövlət mətbuat orqanlarının özəlləşdirilməsi təklifi əhəmiyyətli olmuşdur. Nəticədə hakimiyyət strukturları aparıcı dövlət qəzet və jurnallarının redaksiya heyətinin mülkiyyətinə keçməsinə şərait yaratmışlar. Bununla belə cəmiyyətdə plüralizmin inkişafı yalnız media vasitələrinin maliyyə mənbələrinin müxtəlifliyindən və KİV-in say baxımdan artmasından asılı deyil, dövlət reklam bazarının inkişafına və bu biznes sahəsinin müxtəlif qruplaşmaların nəzarətindən çıxarılmasına çalışmalıdır. Azərbaycanda məhdud həcmdə olan reklam bazarı sağlam rəqabət prinsipinə uyğun formalaşmalıdır.

Nəticə. Beynəlxalq təşkilatlar vasitəsilə dünya informasiya sisteminə və məkanına inteqrasiya etmiş Azərbaycan mətbuatı keyfiyyətcə yeni dönəmə qədəm qoymuş, böyük uğurlar əldə etmişdir. Bununla belə keçid dövrünün xüsusiyyətlərinə uyğun olaraq, ölkə mətbuatının inkişaf yolu ziddiyyətli və xeyli dərəcədə mürəkkəb olmuşdur ki, bu məsələlər də öz həllini tapmaqdadır.

ƏDƏBİYYAT

1. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı, NAT MMC, 2009, 490 s.
2. ООН. Управление Верховного комиссара по правам человека. - http://www.ohchr.org/RU/AboutUs/Pages/WhoWeAre.aspx [20.09.2024].
3. Voluntary pledges and commitments on human rights in accardance with Resolution A/RES/60/251. - www.un.org/ga/60/elect/hrc/azerbaijan.pdf [20.09.2024].
4. Совет по правам человека ООН. Универсальный периодический обзор ООН. 4-6 февраля 2009 г. Азербайджан. - http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/Highlights4February2009pm.aspx [20.09.2024].
5. Журнал ООН. - http://www.un.org/ru/documents/journal.asp [20.09.2024].
6. UN Chronicle. - http://unchronicle.un.org/ [20.09.2024].
7. Хорольский В. Медийная глобализация и информационно-коммуникативная деятельность ЮНЕСКО // Акценты: новое в массовой коммуникации, Воронеж, 2009, Выпуск 5-6 (84-85), с. 23-36.

САБИР МАМЕДОВ
Профессор Бакинского государственного университета

ИМПЛЕМЕНТАЦИЯ ПРИНЦИПОВ МЕЖДУНАРОДНОЙ ЖУРНАЛИСТИКИ В МЕДИА-СИСТЕМУ АЗЕРБАЙДЖАНА

В статье анализируется процесс интеграции азербайджанских СМИ в международное информационное пространство, раскрываются пути и методы организации межгосударственного сотрудничества в данной области. Автор отмечает, что в настоящее время межгосударственное сотрудничество строится на основе защиты прав прав человека и соблюдения верховенства закона. В этом плане Азербайджан осуществляет свою деятельность в рамках международных организаций и на уровне развития двусторонних связей с мировыми государствами.

Сотрудничество нашей страны с ООН, ЮНЕСКО, Советом Европы и ОБСЕ в широкой степени обеспечивает имплементацию современных демократических норм и принципов во внутреннее законодательство, обеспечивает участие международных экспертов в подготовке различных нормативно-правовых документов, а также способствует освоению передового опыта развитых государств.

Ключевые слова: медиа, международные организации, международные информационные отношения, свобода слова, законодательство.

SABIR MAMMADOV
Professor of Baku State University

IMPLEMENTATION OF THE PRINCIPLES OF INTERNATIONAL JOURNALISM IN THE MEDIA SYSTEM OF AZERBAIJAN

The article analyzes the process of integration of Azerbaijani media into the international information space, reveals ways and methods of organizing interstate cooperation in this area. The author notes that at present, interstate cooperation is based on the protection of human rights and respect for the rule of law. In this regard, Azerbaijan carries out its activities within the framework of international organizations and at the level of developing bilateral relations with world states. Our country's cooperation with the UN, UNESCO, the Council of Europe and the OSCE widely ensures the implementation of modern democratic norms and principles into domestic legislation, ensures the participation of international experts in the preparation of various regulatory documents, and also contributes to the development of best practices of developed countries.

Keywords: media, international organizations, international information relations, freedom of speech, legislation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: f.e.d. Həmid Vəliyev, t.ü.f.d. Məmmədağa Baxışov.